*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 17 (508)
31 avqust
2017-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "QARABAĞ" FUTBOL KLUBUNUN HEYƏTİNİ QƏBUL EDİB

***Avqustun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev UEFA Çempionlar Liqasının qrup mərhələsinə yüksələn Ağdamın "Qarabağ" futbol klubunun heyətini qəbul edib.***

**AZƏRTAC** xəbər verir ki, futbolçuları salamlayan Prezident İlham ƏLİYEV dedi:

- Ölkəmizin futbol tarixinin yeni səhifəsi açılmışdır. "Qarabağ" futbol klubu UEFA Çempionlar Liqasının qrup mərhələsinə vəsiqə qazanmışdır. Bu tarixi qələbə münasibətilə sizin hamınızı ürəkdən təbrik edirəm. Siz Azərbaycan xalqına qələbə sevinci bəxş etdiniz. Siz gərgin mübarizədə bir daha göstərdiniz ki, Azərbaycan idmançısı, Azərbaycan vətəndaşı öz xalqına, dövlətinə bağlıdır, güclüdür, peşəkardır və ölkəmizi beynəlxalq müstəvidə ləyaqətlə təmsil edir.

Bu tarixi qələbə, eyni zamanda, ona görə önəmlidir ki, bu qələbəni hamımız üçün doğma və əziz olan "Qarabağ" komandası qazanıb. "Qarabağ" komandası Qarabağın adını daşıyır. "Qarabağ" komandası işğal altında olan Ağdam şəhərini təmsil edir. Ona görə sizin qələbənizin çox böyük əhəmiyyəti, mənası var. Bu, sadəcə olaraq, idman qələbəsi deyil, bu, dövlətimizin, Azərbaycan gəncliyinin, vətənpərvər insanların qələbəsidir. Biz döyüş meydanlarında da, idman meydançalarında da qələbələr qazanırıq. Necə ki, keçən ilin aprel ayında qəhrəman Azərbaycan hərbçiləri şücaət göstərərək torpaqlarımızın bir hissəsini işğalçılardan azad etdilər. O torpaqlarda indi həyat qaynayır. Vətəndaşlar işğaldan azad edilmiş torpaqlara qayıdıblar, indi orada yaşayırlar, qururlar, yaradırlar. O torpaqlarda indi Azərbaycan bayrağı dalğalanır.

Siz də Azərbaycan bayrağını futbol sahəsində yüksəklərə qaldırmısınız. Əminəm ki, hər bir vətənpərvər Azərbaycan vətəndaşı və xaricdə yaşayan milyonlarla azərbaycanlı sizin qələbənizə ürəkdən sevinirdi, fəxr edirdi ki, Azərbaycan komandası, xüsusilə "Qarabağ" adını daşıyan komanda bu gün dünyanın, Avropanın ən güclü komandaları arasında yer tutub.

Bu qələbə, eyni zamanda, Azərbaycanda futbolun inkişafının təzahürüdür. Mən çox şadam ki, dünyanın ən populyar idman növü - futbol Azərbaycanda inkişaf edir. Biz bu inkişafı çoxdan gözləyirdik. Futbolçularımızın qələbələrini səbirsizliklə gözləyirdik. Bu gün həsab edirəm ki, bunun şahidiyik. Çünki həm klublar, həm milli yığma komandamız yaxşı nəticələr, ləyaqətli oyun,



əzmkarlıq, iradə və vətənpərvərlik göstərir. Ona görə mən hesab edirəm ki, Azərbaycan futbolu gələcəkdə daha da sürətlə inkişaf edəcək, həm klublar, eyni zamanda, yığma komandamız ölkəmizi ləyaqətlə təmsil edəcək.

Əlbəttə ki, bu qələbə son illər ərzində ölkəmizdə idman sahəsində görülən işlərin nəticəsidir. Çünki idman Azərbaycanda dövlət siyasətidir. Bu gün Azərbaycan dünya miqyasında idman dövləti kimi tanınır. İstər Avropa və dünya çempionatlarında, istərsə də Olimpiya Oyunlarında idmançılarımız yüksək nəticələr göstərirlər. Bakıda keçirilmiş birinci Avropa və IV İslam Həmrəyliyi oyunları bir daha Azərbaycan idmançılarının gücünü göstərdi. Biz komanda hesabında Avropa Oyunlarında ikinci, İslam Həmrəyliyi Oyunlarında isə birinci yerə layiq görüldük. Bu, tarixi qələbədir. Eyni zamanda, keçən il Rio Yay Olimpiya Oyunlarında Azərbaycan idmançıları 18 medal qazanmışlar və medalların sayına görə dünya miqyasında 14-cü yeri tutmuşlar.

Bu, gənc müstəqil dövlət üçün tarixi nailiyyətdir. Çox şadam və bir daha qeyd etmək istəyirəm ki, ən məşhur, ən populyar idman növü olan futbol da Azərbaycanda inkişaf edir. Yeni stadionlar yaradılır, bizim tarixi Tofiq Bəhramov adına stadionumuz bir neçə il bundan əvvəl əsaslı təmir olunmuşdur. Dünyanın ən gözəl stadionlarından biri olan, təxminən 70 min tamaşaçı tutan Bakı Olimpiya Stadionu tikilmişdir. Digər stadionlar, bölgələrdə stadionlar, idman qurğuları tikilir. Çünki idmanın inkişafı, əlbəttə, idman infrastrukturunun mövcudluğuna bağlıdır. Bu istiqamətdə həm bölgələrdə, həm Bakıda ən müasir idman infrastrukturu yaradılmışdır.

Əminəm ki, bu qələbədən sonra futbol bölmələrinə uşaqların axını daha da güclənəcək, futbolçu olmaq, sizə oxşamaq istəyənlərin sayı artacaq. Əlbəttə ki, bu, sizin üzərinizə əlavə məsuliyyət qoyur. Çünki sizi indi Azərbaycanda demək olar ki, tanımayan yoxdur. Sizə diqqət artacaq və necə ki, siz bu günə qədər həm idmanda, həm məişətdə özünüzü ləyaqətlə aparmısınız, əminəm ki, gələcəkdə də gənclər, gənc idmançılar üçün nümunə olacaqsınız.

Onu da qeyd etmək istəyirəm ki, sizin qələbəniz təsadüfi qələbə deyildi. Siz bu qələbəyə doğru neçə ildir ki, gedirdiniz. Həm daxili çempionatda bir neçə dəfə çempion olmusunuz, neçə il Avropa Liqasının qrup mərhələsində iştirak etmisiniz. Mən sizinlə əvvəlki görüşümü xatırlayıram. O vaxt hakimin ədalətsizliyi ucbatından siz qələbədən məhrum edilmişdiniz. Onu da xatırlayıram ki, - o vaxt da mən bunu qeyd etdim, - ədalətsizliyə baxmayaraq, özünüzü çox ləyaqətlə, təmkinlə aparmısınız və ədalət öz yerini tapdı. Siz bu gərgin, çox açıq, ədalətli mübarizədə sübut etdiniz ki, Azərbaycan futbolu inkişaf edir və böyük qələbələr qazana bilər. Ona görə sizin qələbəniz təbiidir və ədalətlidir.

Mən bu münasibətlə, ilk növbədə, klubun rəhbərliyini təbrik etmək istəyirəm, xüsusilə, klubun rəhbəri Tahir Gözəli. Mən bilirəm ki, Tahir bu məsələyə çox böyük sevgi ilə, ürəklə yanaşır. Bəlkə də bu gün ən çox sevinən elə Tahirdir. Səni təbrik edirəm, Tahir. Sənin bütün köməkçilərini, mütəxəssisləri təbrik edirəm. Komandanın baş məşqçisi Qurban Qurbanovu təbrik edirəm. Qurban Qurbanov özünü futbolda həm peşəkar futbolçu, həm bilikli məşqçi, həm də vətənpərvər insan kimi təsdiqlədi.

Eyni zamanda, - yəqin ki, tamaşaçılar da mənim fikrimə şərik olarlar, - Qurban Qurbanov özünü oyunlar zamanı çox ləyaqətlə aparır. Əminəm ki, onun davranışı, əminliyi və təmkinliyi futbolçulara da əlavə güc verir. Əlbəttə ki, futbolçuları təbrik etmək istəyirəm. Çünki bu qələbəni futbolçular qazanıblar. Futbolçu olmaq, idmançı olmaq çox böyük zəhmət, fədakarlıq tələb edir. Futbolçular, əfsuslar olsun ki, gənc yaşlarından zədələrlə üzləşirlər, əməliyyat olunurlar. Ağır işdir, ağır peşədir. Futbolçular göstəriblər ki, onlar böyük qələbələr qazanmağa qadirdirlər.

Bu gün "Qarabağ" futbol klubu Avropanın aparıcı klubları ilə yarışır və yarışacaq. İndi bütün xarici kütləvi informasiya vasitələrinin xəbərlərində artıq Azərbaycanın "Qarabağ" klubu haqqında verilişlər gedir. Bu, əlbəttə ki, ölkəmizin təbliğində çox önəmli hadisədir. Yenə də bütün dünya görür ki, Qarabağ Azərbaycan torpağıdır. Yenə də görürlər ki, baxmayaraq Ağdam şəhəri işğal altındadır, ancaq onun təmsilçiləri Avropanı fəth edirlər. Bu, yenə də göstərir ki, Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. Onu göstərir ki, biz öz torpağımızda yaşayırıq və hamımız arzu ilə yaşayırıq ki, torpaqlarımız işğaldan azad olunsun. Hər bir qələbə, hər bir uğurumuz, istənilən sahədə uğurumuz o günü yaxınlaşdırır.

Keçən ilin aprel döyüşləri onu göstərdi ki, Azərbaycan istənilən vaxtda öz ərazi bütövlüyünü bərpa edə bilər. Bu gün hərbi potensialımız imkan verir ki, biz döyüş bölgəsində bütün vəziyyətə nəzarət edək və öz iradəmizi diktə edək. İdmanda da belədir və idman sevincini bizə idmançılar bəxş edir.

Mən sizin qələbənizi çox yüksək qiymətləndirirəm. Bu, tarixi qələbədir. Bu qələbə tarixə yazılıbdır və çox ədalətlidir ki, məhz "Qarabağ" bu qələbəyə imza atdı. Mən sizi bir daha təbrik edirəm, gələcək uğurlar arzulayıram. Əmin olduğumu bildirmək istəyirəm ki, siz qrup mərhələsində də ölkəmizi layiqincə təmsil edəcəksiniz. Sağ olun.

****

Sonra "Qarabağ" klubunun vitse-prezidenti Tahir GÖZƏL, komandanın baş məşqçisi Qurban QURBANOV, komandanın kapitanı Rəşad SADIQOV çıxış edərək göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına dərin minnətdarlıqlarını bildirdilər.

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

***Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov avqustun 22-də Pakistan İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Səid Xan Mohmandı qəbul edib.***

Qonağı salamlayan nazir öncə yeni təyinat münasibətilə səfiri təbrik edib, respublikamızdakı diplomatik fəaliyyətində ona uğurlar arzulayıb.

Strateji müttəfiqlər olan iki dövlət arasında əlaqələrin zəngin tarixə və dərin köklərə malik olduğunu, Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu münasibətlərin möhkəm təməllər üzərində qurulmasına hər zaman xüsusi önəm verdiklərini, Pakistanın müstəqilliyimizi tanıyan ikinci ölkə olduğunu xatırladan Daxili İşlər Naziri beynəlxalq aləmdə və regional təşkilatlar çərçivəsində Azərbaycanın ərazi bütövlüyünü hər zaman birmənalı şəkildə dəstəklədiyinə görə Pakistan tərəfinə təşəkkür edib.

Daha sonra cənab Ramil Usubov müstəqilliyin ilk illərində üzləşdiyimiz problemlər, ölkədə hökm sürmüş hərc-mərclik, anarxiya, cəzasızlıq mühiti, eyni zamanda, Ermənistanın hərbi müdaxiləsi nəticəsində torpaqlarımızın 20 faizinin işğal edilməsi, nəticədə 1 milyondan artıq soydaşımızın doğma yurd yerlərindən didərgin düşməsi barədə məlumat verib. Xüsusilə qeyd olunub ki, xalqın təlabi ilə ali hakimiyyətə qayıtmış Milli Lider Heydər Əliyevin müdrik siyasəti, onun rəhbərliyi ilə hüquq-mühafizə, o cümlədən daxili işlər orqanlarının birgə gərgin və səmərəli fəaliyyəti nəticəsində ölkədə asayiş, əmin-amanlıq bərpa edilib, kriminogen durum nəzarət altına alınıb. Sabitliyin dönməzliyinin təmin olunması üçün görülən işlər, əmin-amanlıq ölkə iqtisadiyyatının durmadan inkişafı üçün əlverişli şərait yaradıb. Belə təhlükəsiz şəraitdən vətəndaşlarımız kimi, ölkəmizdə fəaliyyət göstərən əcnəbilərin də yararlandıqları diqqətə çatdırılıb.

Nazir cəmiyyət həyatının bütün sahələrində, o cümlədən daxili işlər orqanlarında



həyata keçirilən islahatlar barədə danışıb, ölkəmizin demokratik prinsiplərə söykənən, insan hüquq və azadlıqlarının qorunmasının önə çəkildiyi, polisin fəaliyyəti tənzimləyən yeni qanunların qəbul edildiyini, bu işdə bir sıra inkişaf etmiş dövlətlərin, beynəlxalq təşkilatların böyük rolu olduğunu, həmin qanunların icrasının mühüm əhəmiyyət kəsb etdiyini bildirib. Daxili İşlər Naziri vətəndaşların məruz qaldığı hüquqazidd əməllərə qarşı təxirəsalınmaz operativ tədbirlərin görülməsi baxımından ən müasir informasiya texnologiyalarının, xüsusən DİN-in "Təhlükəsiz şəhər", "102 Zəng Xidməti" Mərkəzinin imkanlarından da geniş istifadə olunduğunu vurğulayıb.

Dövlət başçılarının siyasi iradəsi nəticəsində son illər bütün sahələrdə inkişaf və tərəqqinin müşahidə olunduğunu qeyd edən nazir iki dost ölkənin Daxili İşlər nazirlikləri arasında son illər sıx münasibətlərin mövcudluğundan, imzalanmış beynəlxalq hüquqi sənədlər əsasında transmilli mütəşəkkil cinayətkarlıqla, xüsusilə narkotiklərin qanunsuz dövriyyəsi, qeyri-leqal miqrasiyaya və insan alverinə qarşı mübarizədə birgə səylərin göstərilməsindən, əməliyyat məlumatlarının mübadiləsindən məmnunluğunu bildirib, qarşılıqlı səfərlərin, bu görüşün birgə işbirliyinin daha da dərinləşdirilməsinə öz töhfəsini verəcəyinə əminliyini ifadə edib.

Problemlərə toxunularkən transmilli mütəşəkkil cinayətkarlığın əsas növlərinin, xüsusən narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizənin diqqət mərkəzində dayandığı və belə qlobal xarakterli təhlükəli cinayətlərlə səmərəli mübarizədə səylərin birləşdirilməsinin zəruriliyi qeyd olunub.

Səmimi qəbula, ətraflı məlumata görə təşəkkür edən Səid Xan Mohmand dövlətlərimiz və xalqlarımız arasında dostluq, qardaşlıq münasibətlərinin həqiqətən dərin köklərə malik olduğunu önə çəkərək, xüsusilə son illər ərzində bütün sahələrdə əlaqələrin daha sürətli inkişafından, ölkəmizdə yaradılmış sabitlik və əmin-amanlıqdan, respublikamızın, onun paytaxtının dünyanın ən təhlükəsiz dövlət və şəhərlərindən biri olmasından məmnunluğunu bildirib.

Transmilli mütəşəkkil cinayətkarlıqla, xüsusən Pakistanın zəngin təcrübə topladığı beynəlxalq terrorçuluqla birgə mübarizənin zəruriliyinə dair cənab nazirin fikirlərini bölüşən səfir yüksək səviyyədə olan ikitərəfli əməkdaşlığın bütün sahələrdə daha da inkişafı üçün öz səylərini əsirgəməyəcəyini vurğulayıb.

Səmimilik və dostluq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

2_Layout 1 30.08.2017 11:07 Page 1



# HƏRBİ HİSSƏLƏRİN YARANMASININ İLDÖNÜMÜ QEYD OLUNUB

***Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı hər iki hərbi hissənin şəxsi heyətinə təbrik məktubu ünvanlayıb***

Avqustun 27-də Daxili Qoşunların 25033, 28-də isə 16073 saylı hərbi hissələrinin yaradılmasının 25-ci ildönümü tamam olub. Bu münasibətlə hərbi hissələrdə təntənəli mərasim keçirilib.

Tədbirin rəsmi hissəsi Milli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başlayıb.

İlk olaraq hissə komandirləri çıxış edərək, hərbi hissələrin keçdiyi şərəfli yol və bugünki həyatı, həmçinin 25 il ərzində əldə etdiyi müvəffəqiyyətlər barədə ətraflı məlumat veriblər.

Daha sonra ildönümü münasibətilə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun hər iki hərbi hissənin şəxsi heyətinə ünvanladığı təbrik məktubu oxunub.

Məktubda yarandıqları gündən etibarən regionda ictimai təhlükəsizliyin qarantı sayılan hərbi hissələrin ötən 25 il ərzində təqdirəlayiq xidmət yolu keçərək, xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsində nəzərəçarpacaq irəliləyişlər əldə etdiyi, nəaliyyətlər qazandığı vurğulanıb.

Qeyd olunub ki, bu müddət ərzində hərbi qulluqçuların peşə hazırlığının artırılması, hərbi intizam və şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində çoxsahəli işlər görülüb, müxtəlif uğurlara imza atılıb.

Xüsusi olaraq vurğulanıb ki, şəxsi heyətə göstərilən diqqət və qayğının nəticəsidir ki, bu gün ciddi nizam-intizamın hökm sürdüyü hərbi hissələrimiz qarşıya qoyulan hər bir xidməti-döyüş tapşırığını tam və keyfiyyətlə, yüksək səviyyədə yerinə yetirməyə hazırdır.

Təbrikdə eyni zamanda hərbi hissənin şəxsi heyətinin Milli Liderimiz, ordumuzun memarı möhtərəm Heydər Əliyevin ideyalarına sadiq qalaraq, Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Daxili Qoşunlara göstərdiyi etimadı doğruldacaqlarına, Daxili Qoşunların qəhrəmanlıq ənənələrini bundan sonra da davam etdirəcəklərinə, müqəddəs Döyüş Bayrağını göz bəbəyi kimi qoruyacaqlarına, ləyaqətli xidmət nümunəsi göstərəcəklərinə əminlik ifadə olunub.

Tədbir şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

**Mətbuat xidməti**

# DAXİLİ QOŞUNLARDA HƏR BİR ƏSGƏRİN HAZIRLIĞINA DİQQƏT YETİRİLİR



Tarixi müstəqilliyini əldə edən Azərbaycan Respublikasının qarşısında duran ən ümdə məsələlərdən biri ordu quruculuğunun müasir inkişaf etmiş ölkələrin səviyyəsinə çatdırılmasından ibarət idi. Bu gün demək olar ki, ölkəmizin hərbi gücünü tək region dövlətləri yox, bir sıra inkişaf etmiş dövlətlər də vurğulayır və günü-gündən artan gücümüz deyilənlərin bariz göstəricisidir. Hərb sahəsinə ayrılan vəsaitin Ermənistanın dövlət büdcəsinə bərabər olması faktı və orduya artan qayğı xalq və iqtidar birliyinin təzahürüdür.

Ordu sıralarına çağırılmayana kimi mənim də müfəssəl ordu haqqında məlumatım olmayıb. Müddətli həqiqi hərbi xidmətdə olduğum zaman Azərbaycan Silahlı Qüvvələrinin gücünün şahidi oldum. Bir vətəndaş və hərbi qulluqçu kimi bu məni sevindirməyə bilməzdi. Sözün əsl mənasında, analoqu olmayan hərbi inkişafı hiss edirdim. Bunu istər şəxsi heyətin təlim-tərbiyəsi, nizam-intizamı, döyüş hazırlığı, istərsə də maddi-texniki baza baxımından deyə bilərik.

Öncə ordumuzun maddi-texniki bazası haqqında gördüklərimdən söz açmaq istərdim. Müddətli həqiqi hərbi xidmətimi Daxili Qoşunların 17074 saylı hərbi hissəsində keçirmişəm.

Daxili Qoşunların qarşısına qoyulan döyüş tapşırıqları nöqteyi-nəzərdən maddi-texniki baza yüksək səviyyədə təmin olunub və şəxsi heyətin istifadəsinə verilib. Təlim prosesində istifadə olunan müasir silahlar və döyüş texnikaları hərbi yeniliklərin tələblərinə cavab verir. Təlimlərin real döyüş şəraitinə uyğun həyata keçirildiyi Daxili Qoşunlarda hər bir əsgərin hazırlığına xüsusi diqqət yetirilir. Təbii ki, yüksək döyüş hazırlığına malik olan əsgər qarşıya qoyulmuş tapşırıqları vaxtlı-vaxtında yerinə yetirməyə hazırdır. Bu, sadəcə qürurvericidir.

Hərbi xidmətdə insan amilinin əsas götürülməsi sözsüz ki, ən vacib məqamlardan biridir. Bu gün orduda yüksək döyüş ruhu ilə yanaşı, yüksək təlim-tərbiyə də qorunub





saxlanılır. Deyə bilərəm ki, müstəqillik illərində təlim-tərbiyə prosesində əvəzsiz uğurlara nail olmuşuq. Daxili nizam-intizam qaydaları bütün şəxsi heyət tərəfindən qorunub saxlanılır və xidmət müvafiq nizamnamələrin tələbləri əsasında aparılır. Bunu xidmət müddətində gördüm. Həqiqətən, şəxsi heyət arasında döyüş ruhu misilsiz və əvəzsizdir.

Qürurvericidir ki, hərbi cinayətlər sıfıra enmiş və döyüş ruhu yüksələn xətt üzrə inkişaf edib. Komendant bölüyünün əsgəri olaraq döyüş fəaliyyətinin təşkilində xidməti vəzifəmi yerinə yetirməklə yanaşı, şəxsi heyətin maariflənməsində və asudə vaxtlarının təşkilində komandirlərimə yaxından köməklik etdim. Bu müddət ərzində əsgər yoldaşlarımla sıx ünsiyyətdə olur, onların xidmətə müsbət münasibətlərini yaxından izləyə bilirdim. Onlarda vətənə olan sevgi elə bir yüksək səviyyədə idi ki, bunu yalnız onlarla xidmət edərək bilmək mümkündür.

Bizim hazırlığımızda sözsüz ki, komandirlərimizin üzərinə böyük yük və məsuliyyət düşürdü. Onlar bizə hərtərəfli dayaq olurdular, daimi olaraq səhhətimizlə, əhval-ruhiyyəmizlə maraqlanırdılar. Təlim və məşğələlər zamanı hərbi biliklərin aşılanması da öz yerində. Bir tapşırığı dəfələrlə məşq etdirirdilər ki, bu vərdişlər yaddaşımıza hək olunsun. Hərbi hissə komandanlığının şəxsi heyətə bəslədiyi hörmətin nəticəsi idi ki, hərbi hissədə döyüş ruhu yüksək səviyyədə idi.

Polkovnik Sahib Məmmədov, Elçin Məmmədov, polkovnik-leytenant Elsevər Fətəliyev və polkovnik-leytnant Əfqan Əliyev, mayor Hafiz Əliyev və mayor Səməd Surxayevin adlarını xüsusi ilə vurğulamaq istəyirəm. Hər zaman əsgərlərin yanında olan bu zabitlərlə biz əsgərlər fəxr edirdik.

Komendant bölüyündə xidmətim isə ömrümün ən mənalı anları kimi taleyimə yazıldı. Həmin bölük əsl arzuladığım xidmət növlərindən biri idi. Çünki o xidmətdə silah var idi. Silaha olan sevgim isə uşaqlıq çağlarıma təsadüf edir. Posta çıxmaq, ərazidəki obyektləri qorumaq, mühafizə etmək yaşamaq eşqimi daha da artırırdı.

Hərbi hissə komandiri məni savadlı, qabaqcıl və fəal bir gənc kimi qəbul edərək məni komendant bölüyündə xidmət etməli olacağımı bildirdi. Bu şad xəbəri eşidən kimi çox sevindim. Həmin an minnətdarlığımı bildirərək mənə göstərdikləri etimadı doğruldacağıma söz verdim. Söz verdiyim kimi xidməti başa vurdum. Çünki şərəfli bölükmüzdən diplom və təşəkkürnamə ilə tərxis olundum.

Əldə etdiyim uğurlara görə, sözsüz ki, bölüyümüzün bütün zabit və gizir heyətinin də rolu danılmaz idi. Bölük komandiri leytenant Röyal Əzizov, leytenant Namiq Mancanov, leytenant Elnur Əliyev, leytenant Sakit Behbudov, leytenant Orxan Məmmədov, leytenant Cavanşir Allahverdiyev, gizir Ramil Musayev, gizir Murad Əfəndiyev kimi hörmətəlayiq hərbi qulluqçularımızın əziyyəti əvəzsiz olaraq yaddaşıma yazıldı.

Adlarını çəkdiyim və çəkmədiyim hərbi qulluqçularımızla qürur duyuruq, onlar Silahlı Qüvvələrimizin zabit, gizirləridir. Biz sizinlə yalnız və yalnız fəxr edirik.

***Mahmud Sadıqov***
***"Hərbi And" qəzetinin müxbiri,***
***Daxili Qoşunların sabiq əsgəri***

# MƏKTƏBLİLƏR 16073 SAYLI HƏRBİ HİSSƏDƏ YARADILMIŞ YAY DÜŞƏRGƏSİNDƏ İSTİRAHƏT EDİBLƏR

***Avqustun 14-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunları və Səbail rayon İcra Hakimiyyəti tərəfindən həyata keçirilən birgə layihə çərçivəsində məktəblilərin Daxili Qoşunların 16073 saylı hərbi hissəsində yaradılmış hərbi-vətənpərvərlik təmayüllü "Şahinlər" yay istirahət düşərgəsinə yolasalma mərasimi keçirilib.***

Mərasim Daxili Qoşunların Nümunəvi-göstərici hərbi orkestrinin müşayiəti ilə Dövlət Himninin ifası ilə başlanıb.

Yeniyetmələrin, onların valideynlərinin və bir qrup rayon sakininin iştirak etdiyi mərasimdə çıxış edən Səbail rayon İcra Hakimiyyəti başçısının birinci müavini Xalidə Bayramova Respublika Prezidenti cənab İlham Əliyevin yeniyetmə və gənclərimizin Vətənə məhəbbət, dövlət və dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması istiqamətində həyata keçirdiyi məqsədyönlü islahatlardan söz açıb, bu istiqamətdə görülən işlərin ölkənin birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən uğurla həyata keçirildiyini bildirib.

Səbail rayon İcra Hakimiyyəti ilə Daxili Qoşunların hər il təşkil etdiyi bu layihəni dövlətimiz tərəfindən dəstəklənən tədbirlərin tərkib hissəsi kimi qiymətləndirən X.Bayramova uşaqlara şən və yaddaqalan istirahət arzulayıb.

Daxili Qoşunların Baş İdarəsinin Şəxsi Heyət üzrə İdarəsində mənəvi-psixoloji hazırlıq şöbəsinin rəisi polkovnik Mətləb Qənbərov isə çıxışı zamanı qeyd edib ki, gənc və yeniyetmələrin səmərəli istirahəti, onların vətənpərvər ruhda tərbiyəsinə yönəlmiş bütün layihələr Daxili Qoşunlar komandanlığı tərəfindən dəstəklənir.

Daha sonra "Şahinlər" Fəxri Xiyabanda Milli Lider Heydər Əliyevin məzarını ziyarət edib, abidə önünə çiçək dəstələri düzüb, marş sədaları altında Qubaya yola düşüblər.

Qonaqları səmimi salamlayan 16073 saylı hərbi hissənin komandiri polkovnik Sahib Məmmədov düşərgə dövründə gənclərin asudə vaxtının səmərəli təşkili üçün hər cür şəraitin yaradıldığını bildirib. Vurğulayıb ki, bu gün ölkəmizdə yeniyetmə və gənclərimizin hərbi biliklərinin artırılması, onların Vətənə sədaqətli nəsil olaraq formalaşması üçün davamlı olaraq işlər aparılır. Dövlətimizin həyata keçirdiyi bu siyasətin tərkib hissəsi olaraq, Daxili İşlər Nazirliyi Daxili Qoşunların Komandanlığı da vətənpərvərlik layihələrində hər zaman yaxından iştirak edir, öz köməkliyini əsirgəmir.

Qeyd edək ki, hərbi təmayüllü istirahət düşərgəsində xüsusi hərbi geyimlə təmin edilən məktəblilər gündə 4 dəfə yüksək kalorili yeməklə, təzə meyvə və tərəvəzlə, süd məhsulları ilə təmin olunublar.

Hərbi hissə ilə yaxından tanış olan məktəblilər üçün istirahət müddətində müxtəlif görüşlər, konsert proqramları, mədəni gəzintilər təşkil edilib, məktəblilərin ifasında hərbi marşlar səslədirilib.

Avqustun 26-dək davam etmiş düşərgənin bağlanış mərasimində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Elmira Süleymanova da iştirak edib. Bildirib ki, gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi dövlətin gənclər siyasətinin prioritetidir. Xüsusilə, torpaqlarımızın bir hissəsinin işğal altında olduğu bir vaxtda Vətənin müqəddəsliyi, onun hər bir qarışının dəyərli olması hər bir yeniyetməyə aşılanmalı, vətənpərvərlik hissi bir miras kimi gələcək nəsillərə ötürülməlidir.

Düşərgədə hər il olduğu kimi, bu il də uşaqların təlim-tərbiyəsilə idman və ibtidai-hərbi hazırlıq müəllimləri ilə yanaşı, Daxili Qoşunların zabit, gizir, çavuş və əsgərlərindən ibarət qrupu məşğul olub.













Bir sözlə, hərbi hissədə yaradılmış hərbi-vətənpərvərlik təmayüllü yay düşərgəsində Qarabağ müharibəsi əlilləri və veteranlarının, aztəminatlı, imkansız ailələrin uşaqlarının, təhsildə və idmanda fərqlənən şagirdlərin, həmçinin «SOS-Azərbaycan» uşaq kəndində tərbiyə alan yeniyetmələrin istirahəti yüksək səviyyədə təşkil olunub.

**Mətbuat xidməti**

3_Layout 1 30.08.2017 11:14 Page 1



## ŞƏHİDLƏRİMİZ

# YENİLMƏZ İDMANÇI VƏ VƏTƏNPƏRVƏR ZABİT ÖMRÜ...

***Müqəddəs Vətən torpağını düşməndən qoruyarkən canını fəda etmiş igid oğullarımızın xatirəsi xalq yaddaşında unudulmazdır. Hər bir xalqın böyüklüyü məhz belə oğulları yetişdirməsində və onların adını uca tutmasındadır. Şəhidlik zirvəsi müqəddəsdir. Biz bu zirvəyə ucalmış hərbi qulluqçularımızın fədakarlığını həmişə geniş təbliğ etməliyik.***

Azərbaycan Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yüzlərlə hərbi qulluqçusu Qarabağ müharibəsindən sağ qayıtmayıb. Bu yazıda onlardan biri, Daxili Qoşunların ilk şəhidi, cəsur zabit leytenant İsmayılov Rafiq Seyfəddin oğlunun şərəfli ömür yolundan söhbət açacağam. O, 28 noyabr 1963-cü ildə Bakı şəhərində Seyfəddin İsmayılovun ailəsində dünyaya göz açıb. Bu ailə əslən İsmayıllı rayonunun Hacıhətəmli kəndindəndir. İsmayılovlar ailəsinin beş övladından biri idi. Onun üç bacısı və bir qardaşı var. Atası S.İsmayılov SSRİ DİN Daxili Qoşunlarının tərkibində penitensiar sistemdə işləyib. O, 1982-ci ildə vəfat edib. Anası Əsmər İsmayılova isə bu il haqq dünyasına qovuşub. 1992-ci ildə 28 yaşlı subay oğlunu torpağa tapşıran ana övlad dağı görmüş bütün valideynlər kimi, həyatının sonunadək bu itkinin iztirabı ilə yaşayıb.



**LEYTENANT RAFİQ İSMAYILOV**

R.İsmayılov Bakıdakı 135 nömrəli orta məktəbdə oxuyub. O, 9 yaşından etibarən idmanla məşğul olmağa başlayıb. İdmanın silahsız özünümüdafiə, cüdo və güləş növlərinə maraq göstərib. Qeyd etmək lazımdır ki, atası Seyfəddin kişi vaxtilə güləşlə məşğul olub və oğlunun idmana həvəs göstərməsində onun da az rolu olmayıb.

İdman da bir sınaq meydanıdır. Bu sınaq meydanında qalib kürsülərə yiyələnmək heç də bütün idmançılara nəsib olmur. Bunun üçün yenilməz iradə, mübarizlik ruhu, öz gücünə inam və gərgin əmək sərf etmək gərəkdir. Rəqiblər üzərində qələbələr alın təri ilə qazanılır. R.İsmayılov məhz bu keyfiyyətlərə malik idmançı idi. O, yeniyetməlik və gənclik illərində silahsız özünümüdafiə və cüdo idman növləri üzrə bir çox yarışlarda tatamini qalib olaraq tərk edib, onu yetişdirən məşqçilərin etimadını doğruldub. "Burevestnik" idman cəmiyyətindən başlanan uğurlu yol onu layiq olduğu zirvələrə aparıb. Bu idman cəmiyyətinin açıq birinciliyində, paytaxt miqyaslı yarışlarda, respublika çempionatlarında birinci yerləri tutub və hər dəfə qarşısına əsl idmançı inadkarlığı ilə yeni məqsədlər qoyub. Ona görə də təsadüfi deyil ki, Belarusun paytaxtı Minskdə keçirilmiş gənclər arasında SSRİ çempionatında da qalib yeri tutmağa müvəffəq olmuşdu. O, Ümumittifaq miqyasında müxtəlif regionları təmsil edən idmançıların spartakiadasında azərbaycanlı idmançılar arasında ilk dəfə olaraq ən yüksək pilləyə sahiblənib.

R.İsmayılov Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun (hazırda Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası - Y.A.) məzunu idi. Bu zəngin tarixi və özünəməxsus ənənələri olan ali təhsil ocağında yiyələndiyi nəzəri və praktiki biliklər onun idmançı kimi peşəkarlıq səviyyəsinin yüksəlməsinə təkan verib.

R.İsmayılov Sovet ordusu sıralarında müddətli həqiqi hərbi xidmət keçib. Hərbi xidmət zamanı ordu sıralarında da idmançı fəaliyyətindən kənarlaşmayıb. Bu dəfə hərbçi idmançı kimi növbəti sınaqlarda da öz potensialını nümayiş etdirib.

Sonrakı illərdə Daxili İşlər Nazirliyinin "Dinamo" idman cəmiyyətində (hazırda DİN-in İdman Cəmiyyəti - Y.A.) məşqlərini davam etdirib. O, idmançı bioqrafiyasında yeni uğurlara imza atıb. SSRİ çempionatlarında fəxri kürsülərə qalxaraq, respublikamızın idman şərəfini layiqincə qoruyub. 1990-cı ildə İranda keçirilmiş beynəlxalq turnirdə də o, qalib olub. Daha sonra Türkiyə və Rusiyada keçirilmiş beynəlxalq turnirlərdə öz idmançı məharətini bir daha təsdiqləyib, birincilik qazanıb. O, beynəlxalq dərəcəli idman ustası idi. Məşğul olduğu idman növləri üzrə respublikamızın yığma komandasının üzvü kimi hər bir yarışa ciddi hazırlaşırdı, gələcək üçün planlar qururdu, yeni zirvələri fəth etməyi arzulayırdı. Respublikamızın idman mütəxəssisləri və ümumən idman ictimaiyyətimiz onu perspektivli idmançı kimi tanıyır və fəaliyyətinə rəğbət bəsləyirdilər.

R.İsmayılovun DİN sistemində xidməti fəaliyyəti onun bioqrafiyasında xüsusi yer tutur. DİN-in İdman Cəmiyyətində təlimatçı işləyib, ona əməliyyat-axtarış qrupunun rəisi vəzifəsi də həvalə olunub. Nəhayət, DİN-in Daxili Qoşunlarının idman bölüyündə baş məşqçi vəzifəsində xidmət edib. O, Azərbaycan Daxili Qoşunlarının ilk zabitlərindən biri idi. Hərbi formaya qürurla yanaşırdı, tabeliyindəki hərbi qulluqçulara vətənpərvərlik əqidəsi aşılayırdı, onları dözümlü və iradəli olmağa ruhlandırırdı.

1992-ci il fevralın 26-da baş vermiş dəhşətli Xocalı faciəsi Rafiqi çox sarsıtmışdı. Günahsız dinc sakinlərin erməni cəlladları tərəfindən amansızlıqla qətlə yetirilməsi, qocaların, qadınların və uşaqların əsir götürülməsinə dözə bilmirdi. Düşməndən qisas almağı qətiləşdirmiş, bu barədə idmançı dostları və paqondaşları ilə yekdil fikrə gəlmişdilər. O vaxt ön cəbhənin ən qaynar nöqtələrindən olan Ağdam rayonu ərazisində düşmənlə təmas xətti boyunca gərginlik səngimirdi. Xocalıların xilas ola bilmiş bir qismi ilk olaraq Ağdama pənah gətirmişdi. Əsirlərin geri alınması, meyitlərin çıxarılması da Ağdam-Əsgəran istiqamətində həyata keçirilirdi. Məhz bütün bu səbəblərdən həmin günlərdə buraya torpaqlarımızı müdafiə etmək və düşməndən qisas almaq üçün respublikamızın bütün bölgələrindən könüllülər cəmləşirdi.

Leytenant R.İsmayılov da ön cəbhəyə könüllü getmişdi. Ağdam rayonu ərazisində düşmənlə təmas xəttindəki postlarda yerləşən könüllülər və polis heyətinin sıralarına qatılmış, o istiqamətdə yaşayış məntəqələrimizin müdafiəsində dayanmışdı. Çünki o vaxt Daxili Qoşunların şəxsi heyətinin döyüş zonasına göndərilməsi hələ başlamamışdı. Ancaq belə bir qərar verilmişdi. Məlum olduğu kimi, Daxili Qoşunların ilk birləşmiş hərbi dəstəsi Ağdam rayonuna 1992-ci il martın 12-də gətirilmişdi. Bundan iki gün qabaq - martın 10-da Ağdam-Əsgəran təmas xəttində, Qara qaya yüksəkliyi yaxınlığındakı mövqelərimizi şiddətli atəşə tutan və irəliləməyə cəhd göstərən düşmənin atəş nöqtələrinin susdurulması, ermənilərin canlı qüvvəsinin məhv edilməsi üçün döyüşçülərimiz qətiyyətlə vuruşmuşlar. Bu döyüşdə leytenant R.İsmayılovun açdığı aramsız atəşlə bir neçə düşmən piyadası məhv edilir. Ancaq o özü düşmən snayperinin gülləsinə tuş gəlir. Güllə döş qəfəsindən daxil olaraq, sol ağ ciyəri və ürəyini zədələmişdi. Beləcə, xalqımız daha bir mərd oğlunu itirdi. Daxili Qoşunların ilk şəhidi leytenant R.İsmayılovun qorxmazlığı, cəsarəti və vətənpərvərliyi ön cəbhədə neçə-neçə döyüşçüyə örnək olub.



Məqaləni hazırlayarkən şəhidin ailəsinə baş çəkdim. Leytenant R.İsmayılovun vaxtilə yaşadığı, paytaxtın 8-ci mikrorayonunda yerləşən ünvanda onun qardaşı Akif İsmayılovla görüşdüm.

A.İsmayılov qardaşı barədə xatirələrini danışdı. O bildirdi ki, qardaşı ağır təbiətli, sadə, təmkinli, ailəcanlı, dostluqda sədaqətli, böyüklərə, müəllimlərinə və məşqçilərinə xüsusi hörmətlə yanaşan insan idi.

İdman onun həyatının mənasına çevrilmişdi. Bir idmançı kimi, tükənməz enerjiyə malik olmaqla, fiziki gücündən heç vaxt sui-istifadə etməmişdi. Ona müraciət edən heç kəsə köməyini əsirgəməyib.

1992-ci ildə şəhidi son mənzilə yola salmağa yüzlərlə adam qatılıb. Şəhidin silahdaşları və yaxınları ona son borclarını ehtiramla yerinə yetiriblər.

Mənzildə divarda onun portreti asılıb. Ailə albomunda xeyli fotoşəkilləri yadigar qalıb.

Ailədən bildirdilər ki, 8-ci mikrorayonda yerləşən 10 nömrəli poliklinika şəhidin adını daşıyır.

Bakıda leytenant R.İsmayılovun xatirəsinə həsr olunmuş silahsız özünümüdafiə üzrə (sambo) beynəlxalq turnirlər də keçirilib. Bu turnirlərin keçirilməsi onun parlaq idmançı kimi respublikamız qarşısında xidmətlərinə verilən qiymətin təzahürüdür.

Şəhid haqqında bir sıra müəlliflərin kitablarında, o cümlədən Daxili Qoşunlar tərəfindən hazırlanmış xüsusi nəşrlərdə, habelə ayrı-ayrı qəzetlərdə yazılar dərc olunub. Daxili Qoşunların Muzeyindəki "İlk şəhidlərimiz" stendində onun döyüş yolu barədə məlumat öz əksini tapıb.

Azərbaycan Respublikası Prezidentinin 09.03.2007-ci il tarixli, 2019 nömrəli Sərəncamı ilə leytenant İsmayılov Rafiq Seyfəddin oğlu ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edilib. Medal şəhidin qardaşı A.İsmayılova Daxili Qoşunların Baş İdarəsində keçirilmiş mərasimdə təqdim olunub.

Şəhidin qəbri Bakıda Şəhidlər Xiyabanındadır.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

***P.S. Məqalənin hazırlanması üçün xidməti və bioqrafik məlumatların toplanmasına göstərdikləri köməkliyə görə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi Rayon İdarəsinin əməkdaşı Natiq Qurbanova və şəhidin qardaşı Akif İsmayılova dərin minnətdarlığımı bildirirəm.***

## GENERALLARIMIZ

### SÜLEYMAN BƏY ƏFƏNDİYEV - XALQ CÜMHURİYYƏTİNİN İLK GENERALLARINDAN...

Azərbaycan Xalq Cümhuriyyəti dövründə onun ordusu sıralarında 27 general xidmət etmişdi. Onlardan bir qismi Azərbaycan hökumətinin, qalanları isə çar Rusiyası ordusu sıralarında general rütbəsi qazanmışdılar. Azərbaycan hökumətinin qərarı ilə general rütbəsinə layiq görülənlərdən biri də Süleyman bəy Əfəndiyev idi. O həm də Cümhuriyyət ordusunun ilk şəhid generalı kimi tarixdə qalmışdır.

S.Əfəndiyev milli mənafelərə sadiq, xidməti vəzifələrə məsuliyyətlə yanaşan, son dərəcə işgüzar bir hərbçi idi. O, 1864-cü il oktyabrın 5-də Ağdamda doğulmuşdu. İlk təhsilini Gəncədə tamamladıqdan sonra 1880-ci ildə Yelizavetqrad süvari məktəbinə daxil olmuş və 1885-ci ildə həmin məktəbi başa vuraraq zabit rütbəsi almışdı. Bundan sonra Rusiya ordusu tərkibində xidmət etməyə başlayır. Təəssüf ki, onun bu illərdəki xidməti haqqında məlumat yoxdur. Məlum olan odur ki, Süleyman bəyin xidmət yolu əsasən Qafqazla bağlı idi. O, 1899-cu ildə rotmistr rütbəsi, 1912-ci ildə isə polkovnik rütbəsi almışdı.

1917-ci ilin fevral çevrilişindən sonra Qafqazdakı Rusiya ordusu buraxıldı və S.Əfəndiyev də bu ordudan istefa verməli oldu. O, Gəncəyə qayıtdı və burada azərbaycanlılardan ibarət könüllü silahlı dəstələrin formalaşdırılmasında fəal iştirak etdi.

1917-ci il dekabr ayının ortalarında Müsəlman korpusunun təşkilinə başlandı. Süleyman bəy bu korpusda 5-ci atıcı alayın komandiri idi. Bir müddət hətta Müsəlman korpusunda ikinci diviziya komandirinin vəzifəsini də icra etmişdi. O, Qafqaz İslam Ordusunun tərkibində Azərbaycanın bolşevik-daşnak qoşunlarından təmizlənməsində də fəal iştirak etdi. 1918-ci il noyabr ayının 1-də Azərbaycan Xalq Cümhuriyyətinin Hərbi Nazirliyi təşkil edilənə kimi, təxminən 4 ay müddətində Süleyman bəy bir sıra vəzifələrdə xidmət etdi. Hərbi nazirlik bərpa olunanda polkovnik S.Əfəndiyev Tərtərdə yerləşən 2-ci Qarabağ süvari alayının komandiri idi.

1918-ci il dekabr ayının əvvəllərində Səməd bəy Mehmandarov Qarabağ bölgəsində yerləşən hərbi hissələrin və bölmələrin vəziyyəti ilə tanışlığı zamanı S.Əfəndiyevin komandir olduğu 2-ci Qarabağ alayında vəziyyətin xeyli yaxşı olduğunu müşahidə etdi. Bu tanışlıqla bağlı imzaladığı müfəssəl əmrində S.Mehmandarov yorulmaz xidmətlərinə görə Süleyman bəy Əfəndiyevə və onun ətrafında olan azsaylı zabitlərə öz təşəkkürünü bildirdi.

1918-ci il dekabr ayının sonlarına yaxın S.Mehmandarovun əmri ilə S.Əfəndiyev daha yüksək vəzifəyə təyin edildi. Həmin ayın 23-də S.Əfəndiyev özünün alaydaxili son əmrini imzaladı. Bu əmrini polkovnik S.Əfəndiyev 2-ci Qarabağ süvari alayının hərbi qulluqçularına müraciətlə belə tamamlayırdı: "Mən inanıram ki, siz gələcəkdə də məğrur olacaqsınız, nəzərləri möcüzə-bahadırlara dikilmiş bizim azad Vətənin və millətin bayrağını daşıyacaqsınız. Bu isə sizdən haradan gözlənilməsinə baxmayaraq Vətənin düşmənlərdən müdafiəsi üçün şüurlu və birgə iş tələb edir. Vətənin gələcəyi sizin əlinizdədir. Onun abadlaşması, çiçəklənməsi və ya asılı vəziyyətdə qalması bizim özümüzdən asılıdır".



S.Mehmandarov Azərbaycan hökuməti qarşısında sədaqətli xidmətini nəzərə alaraq S.Əfəndiyevə general-mayor rütbəsi verilməsi haqqında vəsatət qaldırdı. ***Azərbaycan hökumətinin qərarı ilə 1918-ci il dekabrın 29-da S.Əfəndiyevə general-mayor hərbi rütbəsi verildi.***

1919-cu il yanvar ayının 7-dən Süleyman bəy Əfəndiyev AXC ordusunun 1-ci piyada diviziyasının komandiri vəzifəsinin icrasına başladı və özünəxas işgüzarlıq və məsuliyyətlə bu diviziyanın formalaşdırılmasına başladı. İstər hərbi nazirlik, istərsə də Azərbaycan hökuməti üçün bu diviziyanın formalaşdırılması mühüm əhəmiyyət kəsb edirdi. Çünki bu diviziya Qarabağda erməni təcavüzkarlığının qarşısını almaq üçün əsas qüvvə kimi görülürdü.

Bu istiqamətdə S.Əfəndiyevin səmərəli xidməti haqqında müəyyən məlumatlar mövcuddur. Lakin çox təəssüf ki, onun bu diviziyadakı fəaliyyəti uzun sürmür. Çünki 1919-cu ildə Ağdam qarnizonunun hissə və bölmələrində yayılmış səpmə yatalaq xəstəliyi çoxlu sayda əsgərlər kimi, Süleyman bəyin ömrünə də son qoyur. 1919-cu il fevralın 21-də S.Əfəndiyev dünyasını dəyişir. Həyat yoldaşı Laləndar xanımın xahişini nəzərə alan Hərbi Nazirliyin rəhbərliyi onun Qazaxda dəfn olunmasına icazə verir.

S.Əfəndiyevin qəbrinin yeri bu günədək məlum deyil.

**Tarix elmləri doktoru Mehman Süleymanovun qeydlərindən**

# ZABİT ŞƏRƏFİ VƏ LƏYAQƏTİ

Baş leytenant Vüsal Həsənov 67987 saylı hərbi hissənin Xüsusi Təyinatlı Dəstəsinin qrup komandiri vəzifəsində xidmət edir. O, 1982-ci il avqustun 20-də Füzuli rayonunda dünyaya gəlib. Orta məktəbi 2000-ci ildə bitirən Vüsal elə həmin ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına qəbul olub. Ali təhsilini başa vurduqdan sonra müddətli həqiqi hərbi xidmətini Dövlət Sərhəd Xidmətində keçib.

Hərbçi peşəsinə olan sevgisi, dərin marağı onu 2007-ci ildə Daxili Qoşunlara gətirib çıxarır. Öncə o, 67987 saylı hərbi hissənin Xüsusi Təyinatlı Dəstəsində yarımqrup komandiri kimi xidmətə başlayıb. Vətənpərvər hərbi qulluqçu ilk günlərdən intizamı, sayıqlığı ilə fərqləndiyinə görə həm yoldaşlarının, həm də hissə komandanlığının rəğbətini qazanıb. Elə bu səbəbdən etimad göstərilərək hərbi biliklərini artırmaq və peşə vərdişlərini təkmilləşdirmək məqsədilə o, Türkiyədə Jandarma gizir təməl kursuna göndərilib. Kursu uğurla başa vurduqdan sonra 2013-cü ildə ilkin zabit hərbi rütbəsi ilə təltif olunub.

Qarşısına qoyduğu məqsədə doğru irəliləyən baş leytenant V.Həsənov vəzifə borclarının icrasına vicdanla yanaşır. Tutduğu vəzifənin məsuliyyətini dərk edən zabitimiz ona göstərilən etimadı doğrultmaq üçün hər zaman öz üzərində çalışdığını bildirdi.

Tabeliyində olan şəxsi heyətin döyüş hazırlığına, ictimai-siyasi hazırlığına, qrupda hərbi intizama, daxili



qayda-qanuna riayət edilməsinə, bir sözlə, qrupun döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirməsinə ciddi nəzarət edir.

Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Yenibar Hətəmov baş leytenant V.Həsənovun sözün əsl mənasında ləyaqətli zabit olduğunu qeyd edərək, ona verilən tapşırıqların icrasının yüksək səviyyədə olduğunu nəzərə çatdırdı. Tabeliyində olanlara qarşı tələbkar olan qrup komandiri öz biliyini də onlardan əsirgəmir. Xidmətində əldə etdiyi nailiyyətlərə görə həm hərbi hissə komandanlığı, həm də Daxili Qoşunlar Komandanlığı tərəfindən dəfələrlə müxtəlif mükafatlara layiq görülüb.

**leytenant N.Ağayeva**

4_Layout 1 30.08.2017 10:40 Page 1



# TƏRBİYƏÇİ ZABİT OLMAQ MƏSULİYYƏTİ...

Hərbi xidmətdə şəxsi heyətin mənəvi-psixoloji hazırlığı mühüm rol oynayır. Qarşıya qoyulan xidməti-döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsi üçün şəxsi heyətlə tərbiyə işinin aparılması bütün hərbi hissələrimizdə xüsusi diqqət mərkəzində saxlanılır. Tərbiyə işi çoxşaxəli prosesdir və onun effektiv təşkilində tərbiyəçi zabitlərin üzərinə böyük məsuliyyət düşür. Bu məsuliyyəti dərk edərək öz funksional vəzifələrinə vicdanla yanaşan zabitlərdən biri də baş leytenant Vüqar Piriyevdir. O, 16076 saylı hərbi hissədə tərbiyə işləri üzrə bölmənin rəisi-təlimatçıdır. 19 fevral 1985-ci ildə Qazax şəhərində anadan olan baş leytenant V.Piriyev 2003-2005-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət edərək, çavuş hərbi rütbəsində ehtiyata buraxılıb. 2008-ci ildən Daxili Qoşunların sıralarında xidmət edir. Həmin ildən başlayaraq bu günədək 16076 saylı hərbi hissədə müddətdən artıq xidmət edən hərbi qulluqçudan tərbiyə işləri üzrə bölmənin rəisi vəzifəsinədək yüksəlməsi onun əzmkarlığının göstəricisidir. Hərbi hissənin qərargahında kargüzar, taqım komandiri, bölük komandirinin müavini və bölük komandiri vəzifələrində xidmət etdikdən sonra belə bir məsul vəzifəyə irəli çəkilməsi ilə komandanlıq ona etimad göstərib.

O, bir zabit kimi Daxili Qoşunların öz yetirməsidir. Belə ki, 2012-ci ildə Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbini bitirib. Yiyələndiyi nəzəri hərbi biliklər, xidmət etdiyi vəzifələrdə topladığı praktiki təcrübə ilə heç vaxt arxayınlaşmayıb. Zabitin dünyagörüşü, peşəyönümlü keyfiyyətləri və fəaliyyəti daim inkişaf etməlidir. Bu inkişaf olmadan xidməti vəzifələri müasir tələblərə uyğun yerinə yetirmək mümkün deyil. Baş leytenant V.Piriyev öz üzərində çalışan, bilik və bacarıqlarının təkmilləşməsinə xüsusi diqqət yetirən, daim xidmət mənafe-




yini üstün tutan zabitdir. Hərbi hissə komandanlığı tərəfindən o, yüksək icra intizamına malik, təşkilatçı və təşəbbüskar, şəxsi heyətə diqqətli və qayğıkeş hərbi qulluqçu kimi xarakterizə olunur.

16076 saylı hərbi hissənin yerinə yetirdiyi vəzifələrin xüsusiyyətlərini nəzərə alsaq, burada tərbiyə işində heç bir boşluq ola bilməz. Mühüm obyektlərin mühafizəsi üzrə gündəlik döyüş xidmətinə cəlb olunan şəxsi heyətin mənəvi-psixoloji hazırlığının sabit saxlanması komandir heyəti ilə yanaşı, tərbiyə işləri üzrə bölmənin də məqsədyönlü, ardıcıl və əhatəli işindən asılıdır. Mövcud durum və xidməti fəaliyyət prosesində əldə olunan müsbət nəticələr belə qənaətə gəlməyə əsas verir ki, baş leytenant V.Piriyev və tabeliyindəki hərbi qulluqçular vəzifə borclarının öhdəsindən layiqincə gəlirlər. Bu il hərbi hissədə keçirilmiş inspeksiya yoxlaması zamanı tərbiyə işinin vəziyyəti müsbət qiymətləndirilib.

Tərbiyə işləri üzrə bölmənin rəisi ilə söhbət edərkən o, hərbi hissədə şəxsi heyətlə tərbiyə işinin təşkilindən ətraflı danışdı. Qeyd etdi ki, şəxsi heyətin mənəvi-psixoloji durumuna xüsusi diqqət yetirilir, hər bir hərbi qulluqçunun intizam göstəriciləri ciddi təhlil olunur, çavuş və əsgərlərlə müntəzəm olaraq tərbiyəvi söhbətlər aparılır, fəalların seçimi və hazırlanması, habelə təlimatlandırılmasına çox diqqətlə yanaşılır. Bununla yanaşı, nümunəvi xidmətə həvəsləndirmə yönündə tədbirlər obyektivliyə söykənərək tətbiq edilir. Şəxsi heyət qoşunların şərəfli ənənələri ruhunda tərbiyə olunur, hərbi hissənin yerinə yetirdiyi vəzifələrin mahiyyəti onlara düzgün aşılanır.

Diqqət yetirdim ki, baş leytenant V.Piriyev şəxsi heyəti yaxşı tanıyır, hər bir bölük üzrə hərbi qulluqçuların əsas xidmət göstəricilərinə bələddir. Tərbiyəçi zabit kimi hərbi hissənin gündəlik həyatında elə bir məqam yoxdur ki, onun diqqətindən kənar qalsın. "Tərbiyə işləri üzrə bölmə işini elə qurmalıdır ki, hərbi qulluqçular hər hansı bir məsələ ilə bağlı müraciət etməyə ehtiyac duyduqda tərəddüd etməsinlər"- baş leytenant V.Piriyev dedi. Onun bu fikri ilə razılaşmamaq olmur. Tərbiyəçi zabitin şəxsi heyətin etibarını qazanması vacib amildir. Necə ki, oxuculara təqdim etdiyim və fəaliyyətini işıqlandırdığım baş leytenant V.Piriyev buna nail olub.

Baş leytenant V.Piriyev indiyədək xidməti dövründə Daxili Qoşunlar Komandanı və hərbi hissə komandiri tərəfindən mükafatlandırılıb. Bu il isə III dərəcəli "Qüsursuz xidmətə görə" medalı ilə təltif olunub.

**Yalçın Abbasov**

# HƏRBİ HİSSƏDƏ CAMAŞIRXANANIN FƏALİYYƏTİ...

Bu gün Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının hərbi hissələri müasir standartlara tam cavab verən, hərtərəfli şəraitə malikdir. Hərbi hissələrdə, o cümlədən hərbi şəhərciklərdə yaradılmış səliqə-sahmanın, göz oxşayan yaşıllıqların qorunub saxlanılması, sanitar-gigiyenik tələblərə ciddi riayət olunması hissə komandanlıqları qarşısında qoyulan əsas tələblərdən biridir. Qoşunların 16075 saylı hərbi hissəsində də sadaladığımız bu xüsusiyyətlər özünü geniş şəkildə büruzə verir. Bu günlərdə



qəzetimiz üçün material hazırlamaq məqsədilə hərbi hissədə olarkən ərazidə, sözün əsl mənasında, baş verən dəyişikliklərin şahidi oldum. Abadlıq-quruculuq işlərinin görülməsi istiqamətində istiqamətində aidiyyəti rəhbər şəxslər vəzifə borclarına məsuliyyətlə yanaşırlar. Bu işlərin görülməsində təkcə hərbi qulluqçuların deyil, mülki işçilərin də əməyindən geniş istifadə olunur. Əsgər yeməkxanasında xörəklərin hazırlanması, camaşırxanada şəxsi heyətin həftə ərzində istifadə etdiyi əmlakların yuyulması və s. işlər məhz onlar tərəfindən həyata keçirilir. Yəni əvvəllər bu işlərə müddətli həqiqi hərbi qulluqçular cəlb edilirdisə, artıq əsgərlər bütün bilik və bacarığını, gücünü döyüş hazırlığının yüksəldilməsi məqsədilə təlim və məşğələlərdə peşə vərdişlərinin artırılmasına sərf edirlər.

Sözügedən mövzunu 16075 saylı hərbi hissənin camaşırxanasında çalışan işçi qadınların fəaliyyətilə davam etdirmək istərdim. Qeyd etmək lazımdır ki, camaşırxana bütün növ əmlakların yuyulması, qurudulması, o cümlədən çeşidlənməsi üçün lazım olan müasir texniki avadanlıqlarla təchiz olunub.

Funksional vəzifələrinin icrasına cavabdehlik hissi ilə yanaşan təminat bölüyünün təminat taqımında hamam-camaşırxana kombinatının rəisi çavuş Coşqun Mehdiyev tabeliyində olan işçi xanımların fəaliyyətindən söz açdı. Camaşırxanada olan avadanlıqların saz olmasına, texniki vasitələrdən istifadə zamanı təhlükəsizlik tədbirlərinə və sanitar-gigiyena qaydalarına riayət edilməsinə cavabdehlik daşıyan çavuş C.Mehdiyev tabeliyində olan şəxsi heyətin işgüzarlıq və mənəvi keyfiyyətlərini sadaladı. Bildirdi ki, Süzənbər Süleymanova, Lətifə Kərimova və Fatimə Əmrahova artıq uzun zamandır ki, hərbi hissədə əsgərlərin qayğısına qalırlar. Öz işlərini həvəslə görən xanımlar hər bir əsgərə ana qayğısıyla yanaşır, onlara öz doğma övladı kimi baxırlar. Çünki bilirlər ki, güclü əsgər Vətən torpağının bölün-



məzliyi deməkdir.

Həftədə 1 dəfə olaraq hamam tədbirlərindən sonra 1-ci, 2-ci, 3-cü günlər əsgərlərin çirkli əmlakları yuyulur. Hər bir əmlak ütülənib qurudulduqdan sonra çeşidlənərək, aidiyyəti üzrə bölmələrə təhvil verilir. Əmlaklar istifadə təyinatına və rənginə görə ayrıca paltaryuyan qurğularda yuyulur ki, bu da texnoloji tələblərə əməl edilməsi deməkdir. Bu tələblərə ciddi əməl olunması hissə komandanlığının nəzarətdə saxladığı və işçilərin qarşısında qoyduğu ən mühüm tələbdir. Yeri gəlmişkən qeyd edim ki, yay mövsümü ilə əlaqədar olaraq, hərbi hissə komandirinin müvafiq əmrinə əsasən, əsgərlərin hamam tədbirləri həftədə iki dəfə həyata keçirilir.

Mülki işçi olmalarına baxmayaraq, hərbi qulluqçulara xas keyfiyyətləri özlərində hiss etdiklərini deyən xanım işçilər bundan sonra da üzərilərinə düşən vəzifələri, habelə verilmiş tapşırıqları müvafiq tələblər əsasında yerinə yetirmək üçün səylə çalışacaqlarını bildirdilər.

**leytenant N.Ağayeva**

## *METODİKİ VƏSAİT*

# DÖYÜŞ MÜHAFİZƏSİNDƏ, DÖYÜŞ NÖVBƏSİNDƏ, QAROVULDA VƏ DAXİLİ NARYADDA XİDMƏTİN NÜMUNƏVİ APARILMASI YÜKSƏK DÖYÜŞ HAZIRLIĞININ RƏHNİDİR

***Qeyd:** İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu məşğələyə hazırlaşarkən Daxili Xidmət Nizamnaməsinin, Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin, qoşun xidməti haqqında əmr və təlimatların tələblərini diqqətlə öyrənməli, öz bölməsinin tapşırıqlarını, xüsusiyyətlərini, xidmət şəraitini nəzərə almalıdır.*

*(əvvəli ötən sayımızda)*

### 2. Bölmənin şəxsi heyətinin qoşun xidmətini aparmaq üçün hərtərəfli hazırlığa səfərbərliyi

Daxili xidmətə, qarovul və qarnizon xidmətinə hazırlıq prosesində hərbi nizamnamələrin öyrənilməsi, hərbi qulluqçulara nizamnamə tələbləri ilə yaşamaq və xidmət etmək hissi aşılamaq başlıca yer tutur. Bu məqsədlə, döyüş və ictimai-siyasi hazırlıq məşğələlərindən əlavə məqsədyönlü təbliğat işləri aparılır. Bölmələrdə və hissələrdə mühazirələr oxunur, konfranslar keçirilir, "Nizamnamə qaydalarının yerinə yetirilməsində qoşun xidmətinin əhəmiyyəti", "Hərbi nizamnamələr hərbçi həyatının və fəaliyyətinin hüquqi və mənəvi normalarının toplusudur" və başqa mövzularda söhbətlər aparılır.

Komandirlər və tərbiyə işləri üzrə zabitlər əsgərlərə nizamnamələrin əsas müddəalarını izah etdikdə onların diqqətini gündəlik naryadda vəzifə borclarını bilmələrinə, gün növbətçisinə və patrula verilən konkret tapşırıqlara cəlb etməlidirlər.

Əsgərlərdə öz vəzifə borclarını qüsursuz yerinə yetirmək üçün lazım olan mənəvi və döyüş keyfiyyətlərinin formalaşdırılmasında ictimai-siyasi hazırlıq dərslərinin böyük rolu var. Ona görə də ictimai-siyasi hazırlıq dərslərində qrup rəhbərləri hərbi qulluqçuların döyüş mühafizəsində, döyüş növbəsində, qarovul və daxili naryadda xidmətin aparılmasında möhkəm intizamın və yüksək sayıqlığın əhəmiyyətini daha dərindən anlamalarına kömək edir.

Qoşun xidmətinə dair məsələlər məruzələrdə, söhbətlərdə işıqlandırılır. Hərbi hissələrdə hər ayın axırında qoşun xidmətinin təhlili aparılır, yekunlaşdırılır və hərbi hissə komandirinin müvafiq əmri ilə elan edilir. Həmin əmrdə qoşun xidmətinin yoxlanılması zamanı aşkar edilmiş nöqsanlar göstərilir, daxili naryad, qarovul, döyüş növbətçiliyi xidmətlərinin aparılmasını yaxşılaşdırmaq üçün tədbirlər müəyyən edilir, eləcə də fərqlənənlərə həvəslən-dirmələr tətbiq edilir.

### 3. Döyüş mühafizəsində, döyüş növbəsində, qarovul və daxili naryadda xidmətin aparılması məsuliyyətli və şərəfli işdir

Daxili xidmətə təyin olunmuş hərbi qulluqçularla iş aparılarkən, kazarmada, avtomobil parkında, yeməkxanada, hərbi şəhərciyin ərazisində nizamnamə qaydalarına əməl edilməsində onların cavabdehliyi xüsusi olaraq qeyd olunur, lazımi təlim məşğələsi keçirilir və bu məşğələdə yerli şəraitə uyğun yüksək sayıqlıq və döyüş hazırlığını təmin edən amillər öyrənilir. İndiki dövrdə qarovul xidmətinin, döyüş mühafizəsinin və döyüş növbətçiliyinin xüsusi əhəmiyyət kəsb etməsi məşğələdə şəxsi heyətə çatdırılmalıdır. Bu isə ondan irəli gəlir ki, düşmən kəşfiyyatçıları ordumuzun döyüş sayıqlığı və qoşunların yerləşdiyi məntəqələr haqqında məlumat toplamaq üçün hər cür vasitələrə əl atır.

Qoşunların fəaliyyətində daxili xidmət naryadlarının, qarnizon və qarovul xidmətlərinin xüsusi əhəmiyyəti vardır. Bu xidmətlər hissə və bölmələrin döyüş hazırlığını müəyyən edən müasir tələblər əsasında hərbi nizamnamələrə uyğun təşkil olunur.

Daxili naryadın vəzifəli şəxslərinin hazırlığı onların nizamnamə vəzifələrini təmin edir. Ona görə də naryada təyin olunan şəxsi heyət öz vəzifə borclarını, müxtəlif şəraitlərdə, məsələn, "həyəcan", "toplanış" siqnalları alarkən, silah-sursat verərkən, səhər baxışı və axşam yoxlamaları apararkən, məşğələ saatlarında hərəkət qaydalarının öyrənilməsinə məsuliyyətlə yanaşmalıdır. Naryada təyin olunan hər bir hərbi qulluqçu nizamnamə üzrə vəzifələrini əsaslı təkrar etməlidir.

Qarovul xidmətinə təyin olunan hər bir əsgər, çavuş bu xidmətin döyüş tapşırığı olduğunu, qarovulda qoyulmuş tapşırıqların yüksək məsuliyyətini şüurlu dərk etməli, nizamnamə qaydalarının hər cür pozulmasına qarşı ciddi mübarizə aparmalıdır.

Qarovulda əsas diqqət Döyüş Bayrağının, saxlancların, parkların mühafizəsinə, eləcə də gecə vaxtı və pis hava şəraitində xidmət aparan şəxsi heyətin təlimatlandırılmasına yönəldilir. Onlar öz vəzifələrini yerinə yetirərkən, yüksək sayıqlıq nümayiş etdirməlidirlər.

Qarnizon xidmətinin şəxsi heyəti ilə aparılan işlərin forması və məzmunu qarovul xidmətində olduğu kimidir. Lakin burada hərbi qulluqçulara təlimat keçərkən, onların hərbi hissədən kənara çıxması, yerli əhali ilə təmasda olması qeyd edilir və ona görə də onlardan daim sayıqlıq, hərbi sirləri qoruyub saxlamaq, təmkinlilik, nümunəvi xarici görünüş tələb olunur. Ümumiyyətlə, aparılan işlərin əsas məqsədi hərbi qulluqçuları şəraitdən asılı olmayaraq hərbçi şərəfinə layiq xidmət etməyə, hərbi andın, nizamnamələrin və komandirlərin (rəislərin) tələblərini dəqiq və qüsursuz yerinə yetirməyə ruhlandırmaqdır.

**Mənəvi-psixoloji hazırlıq şöbəsi**

# MÜQƏDDƏS QURBAN BAYRAMINIZ MÜBARƏK!

## *Qurbanların kəsilməsi və şərtləri...*

Qurban bayramı İslam aləminin ən möhtəşəm və müqəddəs bayramıdır. Bütün müsəlman ölkələrində olduğu kimi, bu bayram Azərbaycanda da təmtəraqla keçirilir. Müstəqillik əldə etdikdən sonra Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanununa əsasən, Qurban bayramı dövlət səviyyəsində qeyd olunmaqdadır.

Qurban bayramında kəsilən heyvanlarda bir sıra şərtlər vacib sayılır. Qurbanlıq kimi seçilən heyvan qoç, iribuynuzlu dana, inək, yaxud da dəvə olmalıdır. Nəsil artımında dişi heyvanların müstəsna rolu olduğuna görə qurbanlıq heyvanın erkək olması daha üstün tutulur. Qurbanlıq qoçun yaşına gəlincə, bu, ən azı altı aylıq heyvan olmalıdır. Lakin dana, yaxud dəvənin bir yaşı tamam olsa, daha yaxşıdır. Qurbanlıq dəvənin beş yaşı tamam olmalıdır. Qurban bayramında kəsilən heyvanın sağlam olması da vacib şərtdir. Əzalarında hər hansı nöqsanı olan, buynuzunun, yaxud qulağının biri olmayan, axtalanmış heyvanın qurban kəsilməsi İslamda məsləhət görülmür. Kəsiləcək qurbanlıq gözəgəlimli olmalıdır.

Bir neçə nəfər yığışıb bir dananı qurban kəsə bilərlər, bu şərtlə ki, hər bir şəxsə düşmüş ət payını ən azı üç hissəyə bölmək mümkün olsun. Bu hissələrdən biri onların öz ailəsinə sərf olunmalı, qalan hissələr isə fəqir-füqəraya paylanmalıdır.

Bu bayramın əsas mahiyyəti qurbanlıq heyvanın ətini Allahın imkansız bəndələri ilə bölüşmək, onları sevindirməkdir. Ayinin əsasında, xeyirxahlıq, paklıq, Allaha inam və sevgi durur.

Qurbanlığın şərtlərindən biri də budur ki, qurban kəsmək yalnız buna imkanı olan adamların boynunda haqdır. İmkanı olmayan adama isə qurban kəsmək vacib deyil. Qurban kəsmək üçün borc pula heyvan almaq İslamda təqdir olunmur, çünki bu bayramın əsas mahiyyəti zənginlərlə imkansızların birliyi, qardaşlığıdır. Bu bayramda hamı sevinməlidir.

**Allah qurbanınızı qəbul eləsin!**

# Allah rəhmət eləsin

Daxili Qoşunların Komandanlığı, şəxsi heyəti və veteranları polkovnik İlham Tağıyevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17072 saylı hərbi hissənin şəxsi heyəti mayor Surxay Gülməmmədova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17072 saylı hərbi hissənin şəxsi heyəti kapitan Nəriman Dadaşova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: X.Hacızadə

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonu : (012) 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000